**Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası**

**Masallı Ziyalıları İctimai Birliyi**



113869

# Aprel döyüşləri – Vətənimin tarixi uğuru

Azərbaycan Milli Kitabxanası

**Səndən ötrü qan tökməyə cümlə qadiriz!**
**Üçrəngli bayrağınla məsud yaşa!**

"Aprel şəhidləri" gənclər üçün əsil qəhrəmanlıq məktəbinə çevrildi. Qəhrəman əsgərlərimiz hər zaman gənclər üçün örnək olub. Gənclərimiz isə qəhrəman əsgərlərin getdiyi yolu təkrar etmək və bəlkə də daha böyük hünər göstərmək arzusu ilə yaşayıblar. Xüsusən, "Aprel şəhidləri" gənclər üçün əsil qəhrəmanlıq məktəbinə çevrildi.

Ötən il aprelin 1-dən 2-nə keçən gecə düşmənlə təmas xəttində baş verən "dördgünlük müharibə" göstərdi ki, Azərbaycan Ordusu qüdrətli və yenilməzdir. Bu qeyri-bərabər döyüşdə Azərbaycan Ordusunun generalından tutmuş sıravi əsgərinə qədər hamı bir nəfər kimi doğma Vətən uğrunda canından keçməyə köklənmişdi. Təsadüfi deyil ki, əməliyyatlar zamanı düşmənin ən həssas nöqtələrinə zərbə vurmaq üçün öndə gənc əsgər deyil, əvəzində Azərbaycan Ordusunun ayrı-ayrı ölkələrdə hərbi təlimlər keçmiş peşəkar zabit heyəti gedirdi.



Strateji əhəmiyyətli Talış kəndi və "Lələ təpə" yüksəkliyinin işğaldan azad olunmasında bilavasitə iştirak edən və döyüşdə şəhid olan Milli Qəhrəman, Xüsusi Təyinatlı Qüvvələrin polkovnik-leytenantı Murad Mirzəyevin, həmçinin, mayor Samid İmanovun və digərlərinin döyüş yolu buna bariz nümunədir. Murad Mirzəyevin rəhbərlik etdiyi xüsusi təyinatlı kəşfiyyat dəstəsi böyük məsafə qət edərək düşmənin onlarla postunu zərərsizləşdirib.

113869

Amma o da həqiqətdir ki, Murad Mirzəyev və digər qəhrəmanlarımız Qarabağın azad olunması prosesinin başlanğıcını qoydular və Azərbaycan Ordusunun buna qadir olduğunu sübut etdilər.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev aprel qələbələrinin ildönümü ilə əlaqədar bir qrup hərbçi ilə keçirdiyi görüşdə bildirib ki, aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir: "Aprel döyüşləri nəticəsində işğaldan azad edilmiş Füzuli, Cəbrayıl və Ağdərə rayonlarında bu gün Azərbaycan bayrağı dalğalanır. Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun bərpa edəcək".

Azərbaycan Milli Kitabxanası
ARXİV

Dövlətimizin başçısı deyib ki, aprel döyüşləri, eyni zamanda, ordumuzun peşəkarlığını göstərdi. Ordumuz əlverişsiz mövqelərdən əks-hücum əməliyyatı apararaq strateji mövqelərə sahib oldu. Bu gün bu strateji yüksəkliklər, mövqelər, işğaldan azad edilmiş ərazilər bizə imkan verir ki, təmas xəttində mövcud olan vəziyyətə tam nəzarət edək və istədiyimiz tədbiri görə bilək. Prezident vurğulayıb ki, aprel döyüşləri hərbi dərsliklərə salınmalıdır. Həm peşəkarlıq, həm də vətənpərvərlik ruhu baxımından aprel döyüşləri bir daha göstərdi ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Bir daha onu göstərdi ki, biz bu vəziyyətlə barışmayacağıq. Onu göstərdi ki, xalq-iqtidar birliyi bu gün Azərbaycanda yüksək səviyyədə təmin olunur, möhkəmlənir.

Hazırda Azərbaycan Ordusunun tərkibində Vətənini sevən, canının torpaq uğrunda verməyə hazır olan gənc əsgər və zabitlərin sayı kifayət qədərdir. Bu insanlar haqlı olaraq ermənilərdən intiqam almaq eşqi ilə yaşayırlar, hər an öz torpaqlarının azad olunması üçün müharibəyə atılmağa məqam gözləyirlər. Bütün bunlar Azərbaycan Ordusunun döyük əhval-ruhiyyəsinin yüksəldilməsində olduqca müsbət rol oynayır.

Aprel döyüşləri göstərdi ki, bu gün əgər bölgədə güclü ordu varsa, o da Azərbaycan Ordusudur.







Az 2018
2336

Azərbaycan Respublikasının Prezidenti yanında
Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi
Şurasının maliyyələşdirdiyi
"Aprel döyüşlərinidə vətənpərvərlik ruhunun təbliği"
tanıdılması meqsədilə ictimaiyyətlə görüşlərin və
məktəblilər arasında inşa müsabiqəsinin keçirilməsi, eyni adlı
klipin hazırlanması" adlı layihəsi çərçivəsində
"Masallı Ziyalıları" İctimai Birliyi
tərəfindən nəşr edilmişdir.

Tiraj: 1000. Sifariş: 18

